# Şəhid əsgərin Şuşa balladası



(esse)

**O gün yağış da çisələyirdi. Şuşanın dağları dumanlı idi. Çiynində yaralı əsgər bir döyüşçü dağ yuxarı dırmaşırdı. Yoldaşlarından geri qalmamaq üçün, xüsusilə də yaralı yoldaşını mənzil başına sağ-salamat çatdırmaq üçün bütün gücünü səfərbər etmişdi.**

– Bir az da döz, qardaşım, Susaya lap az qalıb, – deyərək çiynindəki yaralının halını xəbər almağı da unutmurdu. Döyüşçülər, sanki, sıldırım qayaları dırmaşmır, düz yolla gedirdilər. Onların Şuşaya çatmaq istəyi o qədər güclü idi ki, bu gücün qarşısında heç bir çətinlik dayana bilməzdi.

Budur, uzaqdan Şuşa qalasının divarları görünməkdədir. Düşməni elə azdırmışdılar ki, belə bir yolla Şuşanın fəth olunacağını erməni təsəvvür etmirdi. Yol boyu, meşəliklərdə düşmən pusqularını uğurla dəf etmişdilər. Necə də olsa, axı döyüşdü, yaralısız, şəhidsiz olmur. Lakin onların bir-birinə əhdi vardı. Heç bir yaralını, heç bir şəhidi yarıyolda tərgimiyəcəklərinə dair and içmişdilər. 42 gün idi ki, bir yerdə vuruşurdular. Suqovuşanı, Cəbrayılı, Zəngilanı birlikdə azad etmişdilər. İndi alınmaz qala olan Şuşaya doğru irəliləyirdilər. Bu, onların ən müqəddəs istəyi idi. Hər bir döyüşçü Şuşaya sağ-salamat çatmaq istəyirdi. Heç olmasa, şəhid kimi çatmağa da razı idilər. İlahi, bu necə Vətən istəyidir!

Bu zaman komandirin səsini eşitdilər: “Çiynində yaralı və şəhid daşıyanlar dayansınlar. Şuşa qalasına kəşviyyat bölüyü yollamışıq. Qoy, oraları təmizləsinlər, sonra siz irəliləyərsiniz”.

Yaralını ehtiyatla yerə uzandırdı. Yaralı döyüşçü çox igidliklər göstərmişdi. İndi çarəsiz olması onu incidirdi. Zəif səslə “Kaş bu müqəddəs torpağa özüm ayaq basa biləydim”, – deyir.

Əsgərin bağrı qan ağlayırdı.

– Döz bir az da, – dedi. – Bax, o qala Şuşa qalasıdır.

Heç 2 dəqiqə keçmədi ki, komandir irəliləmək əmri verdi. Yenə yaralını çiyninə aldı. Sanki, çiynindəki ən əziz adamı idi. Onlar birgə irəlilədilər. Kəşviyyat bölüyü qalanı “təmizləmişdi”. Döyüşçülər yaralılar üçün rahat yer də hazırlamışdılar. Hətta tibb qardaşı da gəlib çatmışdı.

Yaralını ehmalca yatağa uzatdı.

– Burada tam təhlükəsizsən, – dedi. – Qardaşım, o hündür binaya bax, indi gedib ora bayrağımızı sancacağıq. Sən onun dalğalanmasını görəcəksən. Bir az yana bax. O da qoşa minarəli Şuşa məscididir. Ordan azan səsini eşidəndə biləcəksən ki, artıq Şuşanı tam azad etmişik. Sən sağalacaqsan. Səninlə birlikdə Cıdır düzünə tamaşa edəcəyik.

Döyüşçü əsgər bu sözləri ürəyindən qanlar axa-axa dedi. Çünki, yaralı çox qan itirmişdi. Onun sağ qalması çətin məsələ idi. Döyüşdə də qan qana qarışmışdı. Şuşada bir döyüşçü 100 düşmənə qarşı vuruşurdu, özü də əlbəyaxa. İgidlər düşmənə göz açmağa aman vermədilər.

Yaralı böyük həsrətlə gözünü o hündür binaya dikmişdi. Yarasının sarınmasını, ona göstərilən qayğını hiss etmirdi. Gözlərini həmin nöqtədən ayırmırdı.

– Axı niyə gecikirlər? Niyə bayraq dalğalanmır? Yoxsa... Yox, yox. Belə şeylər haqqında fikirləşməyəcəyəm.

– Sən bir az yatmağa çalış, əsgər, sən dincəlməlisən, – deyən tibb qardaşına da acığı tutdu. O, bilirdi ki, vaxtı lap az qalıb. Axı Şuşanı gördüm, bəs dalğalanan bayrağı görmək nəsibim olmayacaqmı? – deyə əzab çəkirdi.

Bu zaman kimsə qışqırdı:

– Bir ora baxın, bayrağımız asıldı! Qarabağ Azərbaycandır!

Yaralı əsgər sönməkdə olan baxışlarını nə qədər canlandırmaq istəsə də, mümkün olmurdu. O, bayrağı görə bilmirdi. Amma görməsə də hiss etdi ki, hər kəs sevincindən dəliyə dönüb.

Yaralı həyatla ölüm arasında çırpınırdı. Bəs azan nə vaxt səslənəcək? Axı mən gözləyə bilmirəm.

Bu an azan səsi də ucaldı. Və o, bu səsi eşitdi.

Əşhədu Ənla İlahə İllələllah, Əşhədu Ənnə Muhammədən Rəsulillah!” – dedi. – İlahi, bu günü gördüm” Şuşanın azadlığını hiss etdim, bu, mənə yetər! Yetər ki, torpağım azad olsun!”

Yaralı artıq son nəfəsini verirdi. Əlini tutan oldu. Bu, onun döyüşçü yoldaşı idi. Zəif səslə bunları deyə bildi: “Haqqını halal et, qardaşım. Dalğalanan bayrağı da gördüm, azan səsini də eşitdim. Qarabağ Azərbaycandır!”

O, haqq dünyasına qovuşdu. Bir igidlik mücəssəməsi kimi, bir qəhrəman kimi. Şuşanın göyləri onu ağuşuna aldı, sanki, ana balasını qucağına alırmış kimi.

Şuşa bu əbədiyyət nəğməsini heç vaxt unutmayacaq.

***Elmira MEHDİQIZI***

Xalq qəzeti.- 2025.- 15 yanvar (№ 08). - S.10.